***C.Ü. İlahiyat Fakültesi Dergisi***
***XII/1 - 2008, 377-388***

# Nizami Gəncəviye Göre Həzrət Məhəmmədin Merac Neməti: Bir Dadlı Xurma

***Dr. Siracəddin HACI*** [*]

**Özet**

**Mirac hadisesi İslam tarihinin en önemli olaylarından biridir. Miracın önemli yanlarından birisi de oradan Müslümanlara getirilen nimetlerdir. Bu makalede Azerbaycan'ın büyük şairi Nizami Gencevi'nin tespitiyle Hz. Muhammed'in miraçtan Müslümanlara getirdiği nimetler hurma örneğiyle anlatılmaktadır.**

**Anahtar Kelimeler: Hurma, peygamber, Miraç, hediye**

**Abstract**

**In the article the gift of Islam prophet brought in Ascension Day (Meraj) is explained. According to the thoughts of great Azerbaijan poet Nizami Genjevi the Ascension Day (Meraj) of prophet is the main day in Islam history. Due to the poet's thinking the Ascension Day's (Meraj) gift is the rescue measure for humanity.**

**Key Words: date (khurma), prophet, Ascension Day (meraj), gift**

از سر خوانی که رطب خورده ای
از پی ما زله چه آورده ای

***Xurma yediyin qonaqlıq süfrəsindən***
***Bizə nə xırda-xuruş pay gətirmisən?***[1]

**Hz. Nizami «Sirlər xəzinəsi» dastanında olan üçüncü nətin altıncı beytində islam Peyğəmbərinin (s.a.s) insanlıq üçün gətirdiyi mübarək merac nemətini şərh edib. Şair hz. Məhəmmədin (s.a.s) merac gecəsi qonaqlıq süfrəsinə dəvət edildiyini, Onun bu ilahi süfrədə ilahi nemətlərə qonaq edildiyini, Ona ilahi azuqə verildiyini bədii bir biçimdə gözəl ifadə edib.**

---

[*] **AMEA'nın Nizami Adına Ədəbiyyat İnstititunun Aparıcı Elmi İşçisi.**

[1] Низами Эянъяви, «Сирляр хязиняси», эюстярилян гайнаг, с. 34.

Bunun üçün şair iki vasitədən yararlanıb. Hz. Nizami bu ilahi dəvətin önəmini, əzəmətini, bu dəvət zamanı verilən nemətin dəyərini xurma obrazı ilə simvollaşdırıb.

Hz. Nizami niyə merac gecəsinin dəyərini xurma meyvəsi ilə ifadə edib?

XURMA UCA ALLAHIN (c.c) NEMƏTİDİR

Öncə onu deyək ki, xurma uca Allahın (c.c) dəyər verdiyi, faydasını, bərəkətini vurğuladığı bir nemətdir. Hz. Məryəm ən çətin anında – doğuş sancısı çəkərkən ona xurma yemək əmr edilir:

فَنَادَاهَا مِن تَحْتِهَا أَلَّا تَحْزَنِي قَدْ جَعَلَ رَبُّكِ تَحْتَكِ سَرِيّاً وَهُزِّي إِلَيْكِ بِجِذْعِ النَّخْلَةِ تُسَاقِطْ عَلَيْكِ رُطَباً جَنِيّاً فَكُلِي وَاشْرَبِي وَقَرِّي عَيْناً فَإِمَّا تَرَيِنَّ مِنَ الْبَشَرِ أَحَداً فَقُولِي إِنِّي نَذَرْتُ لِلرَّحْمَنِ صَوْماً فَلَنْ أُكَلِّمَ الْيَوْمَ إِنسِيّاً

(Məryəm, 19/24-26)

«Dərhal (Məryəmin, ya da xurma ağacının) alt tərəfindən ona (Cəbraildən, ya da doğulmaqda olan İsadan) belə bir nida gəldi: «Kədərlənmə, Rəbbin sənin üçün (ayağının) altından bir irmaq axıtdı (ya da bətnindəki uşağı hörmət sahibi etdi. (Qurumuş) xurma ağacını özünə tərəf silkələ, üstünə təzə yetişmiş (xurma) tökülsün. (Xurmadan və sudan) ye, iç, (belə bir uşaq doğduğuna görə) gözün aydın olsun. Əgər (səndən bu uşaq barəsində soruşan) bir adam görəcək olsan, belə de: «Mən rəhman üçün oruc (sükut orucu) tutmağı nəzir eləmişəm, ona görə də bu gün heç kəslə danışmayacağam!».

عِندَ سِدْرَةِ الْمُنْتَهَى عِندَهَا جَنَّةُ الْمَأْوَى

(ən-Nəcm, 53/14-15)

«(Yeddinci göydəki) Sidrətil-müntəhanın yanında. (Mələklər, şəhidlər və müttəqilər məskəni olan) Məva cənnəti onun yanındadır».

Bu ayə ilə bağlı İslam alimlərinin irəli sürdüyü görüşlərdən biri belədir:

«...Yəni sirlərlə dolu «merac» təcrübəsi sırasında Sidrətül-müntəha ifadəsində dilə gətirilən görüntünü açıqlayarkən Rağib, yarpaqlarının kölgəsinə görə, Sidr, ya da Sidra (Ərəbistanda xurma ağacı) Quranda və meracla bağlı hədislərdə cənnətin «kölgəsi»nin, yəni ruhi sükunət və əmin-amanlığının bir simvolu olaraq istifadə edildiyini söyləyir. Əl- müntəha sifəti («ən uzaq nöqtə»), Nihayədə işarə edildiyi kimi, Allahın yaradılmış varlıqların əldə edə biləcəyi bilgilərə bir məhdudiyyət qoyduğu gerçəyinin bir göstəricisi olaraq qəbul edilə bilər...».[2]

[2] Məhəmməd Əsəd, göstərilən qaynaq, s. 1081.

**وَهُوَ الَّذِي أَنشَأَ جَنَّاتٍ مَّعْرُوشَاتٍ وَغَيْرَ مَعْرُوشَاتٍ وَالنَّخْلَ وَالزَّرْعَ**

**مُخْتَلِفاً أُكُلُهُ وَالزَّيْتُونَ وَالرُّمَّانَ مُتَشَابِهاً وَغَيْرَ مُتَشَابِهٍ كُلُواْ مِن ثَمَرِهِ إِذَا أَثْمَرَ وَآتُواْ حَقَّهُ يَوْمَ حَصَادِهِ وَلاَ تُسْرِفُواْ إِنَّهُ لاَ يُحِبُّ الْمُسْرِفِينَ**

**(əl-Ənam, 6/141)**

**«Yer üzünə sərilmiş və sərilməmiş bağ-bağatı (bostanları və bağları), dadları müxtəlif xurmanı və taxılı, bir-birinə həm bənzəyən, həm də bənzəməyən zeytunu və narı yaradan Odur. (Onların hər biri bar verdiyi zaman barından yeyin, yığım günü haqqını (zəkatını, sədəqəsini) ödəyin, ancaq israf etməyin) Allah israf edənləri sevməz!».**

**Bundan başqa, Qurani-Kərimdə xurma uca Allahın (c.c) insanlara verdiyi ruzi, bərəkət, nemət, Allahın qüdrətinin əlaməti, faydalı nemət, var-dövlət, zənginliyin göstəricisi kimi təqdim olunmuşdur.**[3]

**Yuxarıdakı şərhdə deyildiyi kimi, xurma cənnətin kölgəsinin, yəni ruhi sükunət və əmin-amanlığın simvoludur və xurmaya verilən bu dəyər merac gecəsi ilə birgə xatırladılır.**

**Hz. Nizami də merac gecəsini - uca Allahın (c.c) hz. Məhəmmədə (s.a.s) «azuqə», nemət verdiyi gecəni peyğəmbərin «xurma yediyi qonaqlıq» kimi dəyərləndirmişdir.**

**Hz. Məhəmməd (s.a.s) də mübarək hədislərində xurmanın bərəkətini anlatmışdır:**

**«Allah, sizin hər biriniz ilə tərcüməçisiz danışacaq. İnsan sağ tərəfə baxacaq, axirətə göndərdiklərindən başqa bir şey görməyəcək. Soluna baxacaq, axirətə göndərdiklərindən başqa bir şey görməyəcək. Önünə baxacaq, qarşısında cəhənnəmdən başqa bir şey görməyəcək. O halda artıq bir xurmanın yarısı ilə də olsa, özünüzü cəhənnəm atəşindən qoruyun. Bunu da tapa bilməyən gözəl bir söz ilə özünü qorusun».**[4]

**«Biriniz orucunu açacağı zaman xurma ilə açsın. Çünki xurma bərəkətlidir. Əgər xurma tapa bilməsə, orucunu su ilə açsın, çünki su təmizdir».**[5]

**«...Sübhan allahi vəl-həmdü lillahi və la ilahə illallahü vallahü əkbər» de! Bu sözlərin hər birinə qarşılıq cənnətdə sənə bir xurma ağacı əkilər».**[6]

---

[3] Ənam, 6/141; Nəhl, 16/67; Nisa, 4/124; İsra, 17/92; Məryəm, 19/23, Taha, 20/71; Yasin, 36/34; Nəcm, 53/14; Kaf, 50/10.

[4] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. I, s. 488.

[5] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 121.

[6] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 276.

Göründüyü kimi, xurma hz. Məhəmmədin (s.a.s) hədislərində də ruzi, bərəkət, güc, savab, nemət kimi dəyərləndirilmişdir. Həqiqətən, xurma çox bərəkətli, dadlı, şirin, vitaminlərlə zəngin olan bir nemətdir. Bu meyvə insanı aclıqdan xilas edər, insan bədəni ondan şəfa tapar, o, gözlərə nur, dizlərə güc verər.

Hz. Nizami də xurmanın bu özəlliklərindən faydalanaraq hz. Məhəmmədin (s.a.s) merac gecəsini anlatmışdır.

NİZAMİNİN XURMAYA YÜKLƏDİYİ MƏNA

Beytdə xurma obrazı şairə bir sıra imkanlar yaradır. Öncə onu deyək ki, hz. Nizaminin təqdimatında xurma uca Allahla (c.c) onun elçisinin münasibətlərinin doğmalığını, yaxınlığını göstərmək imkanı verir. Beytdə xurma uca Allahın (c.c) hz. Məhəmmədə (s.a.s) sevgisinin simvoludur. Yəni bir insan ona doğma olan bir şəxsi qonaq çağırar. Qonaq çağırmaq da hörmətin, sevginin əlamətidir. Bir insan ona doğma olan şəxsi qonaq çağırarkən ən gözəl nemətləri süfrəyə düzər. Uca Allah (c.c) da hz. Məhəmmədi (s.a.s) dəvət edərkən onun yanına ayrıca elçi – mələk göndərir, ona özəl minik ayırır, onu mübarək yolla yanına gətirir (Məkkə-Qüds), onu ən şərəfli insanlar olan Peyğəmbərlərlə görüşdürür, Onu ən uca məqama yüksəldir, Ona ilahi gözəllikləri, sirləri görmək, bilmək, ən dərin elmi öyrənmək imkanı yaradır. Ona ən dəyərli nemət olan merac neməti (namaz, bağışlanma) verir. Bu nemət çox şirindir, insanların ehtiyaclarına uyğundur, onlara qidadır.

Hz. Nizaminin təfsirinə görə, xurma yeganə meyvədir ki, uca Allahla (c.c) hz. Məhəmmədin (c.c) doğmalığını, onların münasibətinin «şirinliyini» ifadə edə bilir.

Şairin təqdimatında xurma bir ehtiyacdır. Yəni merac neməti insanlığı xilas etmək, onun fitrəti üzrə yaşamasını təmin etmək üçün verilmişdir. Bu qida ruhları doyurar, könüllərə nur bəxş edər. Xurma da bir bərəkətli qidadır. Şairin izahına görə, mənəvi qida ilə maddi qida arasında bağlılıq var. Yəni insan maddi qidasız (qidanın simvolu olan xurma) yaşaya bilmədiyi kimi, ruhunun qidası olan merac neməti olmadan da yaşaya bilməz. Maddi qida (xurma) olmayanda insanın ölüm təhlükəsi yarandığı kimi, mənəvi qida olmayanda da ruhi ölüm qorxusu yaranır, insanın fitrəti pozulur.

Merac neməti uca Allahın (c.c) qüdrətinin əlamətidir. Xurma da qadir Allahın (c.c) bənzərsiz nemətidir. Xurma gücdür, merac neməti də ruhun güc qaynağıdır.

Hz. Nizami üçüncü nətin meracı şərh edən, doğmalıq, şirinlik, sevgi anlayışları yaradan, ifadə edən beytlərində ayrı-ayrı nemətlərlə gözəl bir səhnə yaratmışdır. Baxın, şairin beytdə açdığı süfrənin mənzərəsi belədir: tamaşa etmək, azuqə, xurma, süfrə, pay.

**Hz. Nizaminin xurma obrazı uca Allahla (c.c) hz. Məhəmmədin (s.a.s) münasibətlərinin sevgi əsasında qurulduğunu göstərdiyi kimi, Peyğəmbərlə onun ümməti arasındakı münasibətin doğmalığını da ifadə edir. Belə ki, ümmətin başçısı ilahi merac qonaqlığına dəvət olunub və o mübarək elçi bu qonaqlıqdan sevdiyi insanlara «xırda-xuruş pay» gətirib. Pay gətirmək də sevginin əlamətidir. Deməli, uca Allah (c.c) Peyğəmbərini sevir, o mübarək insan da öz ümmətinə aşiqdir. Gerçəkdən, şairin xurma obrazı ilə kodlaşdırdığı məna çox böyükdür.**

**Bu beytin ideyasının hz. Məhəmmədin xilaskarlıq missiyası ilə sıx bağlı olduğu da göz önündədir. Belə ki, bu xilas neməti – merac neməti olmasa idi, dinin dayağı olmazdı, insanlıq qurtuluş yolunu tapa bilməzdi, insanlığın işığı sönər, aləm cəhalət qaranlığına bürünərdi. O sevgi Peyğəmbəri «xurma payı» gətirməsə idi, insanlıq ölərdi.**

**Hz. Nizami Peyğəmbərin gətirdiyini pay adlandırır. Pay gətirmək, hədiyyə verməklə də sevgini artırır. Biz hz. Məhəmmədi (s.a.s) ona görə sevirik ki, O, bizə tükənməyən bir pay gətirmişdir. Bu bərəkəti qiyamətədək davam edəcək, bizə axirət azuqəsi qazandıracaq pay hz. Məhəmmədin gətirdiyi elm, din, əxlaq, nur, kitab kimi də yozula bilər. Bilmək insanı rahatlığa qovuşdurduğu kimi, xurma yemək də insanı narahatlıqdan xilas edir. Din insanı xoşbəxt etdiyi kimi, xurma yemək də insanı sevindirir. Nur insanın bəsirət gözünə işıq verdiyi kimi, xurma yemək də insanın dizinə güc, qəlbinə fərəh, gözünə aydınlıq verir.**

**Biz, hz. Nizaminin bu beytinin mənasını insanlığın islamdan əvvəlki və sonrakı dövrü arasındakı fərq kimi də oxuya bilərik. Yəni mənən, ruhən ac, əxlaq baxımdan yoxsul olan insanlıq hz. Məhəmmədin (s.a.s) gəlişi ilə «xurma»ya – merac nemətinə, İslama, yəni, azadlığa qovuşdu.**

**Hz. Nizami bu beytdə Peyğəmbər sevgisini ifadə etmək, ona olan ehtiyacı bildirmək, ona bağlılığını göstərmək üçün özünü himayəçisinin, atasının, doğmasının yolunu gözləyən uşaq yerinə qoyur. Şair, ərklə hz. Məhəmməddən (s.a.s) soruşur ki, bizə nə gətirmisən? O bilir ki, Peyğəmbər xurma yediyi qonaqlıqdan əliboş qayıtmaz. Çünki O, mərhəmətlidir, O, ümmətini düşünür, şairin öncəki beytdə dediyi kimi, «mərhəmətlilər bir neçə nəfərin azuqəsini təklikdə yeməzlər».**

**Bizcə, hz. Nizaminin merac nemətini maddi nemətlər vasitəsi ilə, azuqə, süfrə, yemək, pay, xurma, qonaqlıq anlayışları ilə şərh etməsinin ən başlıca səbəbi odur ki, şairin anlayışında merac neməti bir əvəzedilməz qidadır. Bu saydığımız maddi nemətlər insanın**

yaşamasının şərti olduğu kimi, merac neməti də ruhun, əxlaqın əvəzedilməz qidasıdır. Azuqə, süfrə, yemək, pay, xurma maddi sevinc qaynağıdır, bərəkətdir. Merac neməti də insanlığın xeyir-bərəkət, nur içində yaşaması üçün şərtdir. Azuqə, süfrə, yemək, pay, xurma, qonaqlıq sevginin, doğmalığın, şirinliyin əlamətləridir. Merac neməti də ilahi sevginin, uca Allahın (c.c) insanı nə qədər sevdiyinin göstəricisidir. Azuqə, süfrə, yemək, pay, xurma, qonaqlıq olmayan yerdə sevgi də yoxdur, bu yoxsulluq məkanında savaş, nifrət, zülmət, paxıllıq, kin-kudurət var. Merac neməti olmayan cəmiyyət də ölümə məhkumdur, merac neməti olmayan cəmiyyət ruhən ölüdür, orada cəhalət hakimdir, orada ədalət yoxdur.

Hz. Nizaminin şərhində xurmanın dadı ilə merac nemətinin dadı arasında da oxşarlıq var. Xurmanın şirinliyi, dadı, qidalı olması insan nəfsinə ləzzət verdiyi kimi, merac neməti də ruha dinclik, rahatlıq verir. Merac neməti olan namaz və bağışlanma müjdəsi insanın könlünü fərəhləndirir. Hədəfi uca Allahın (c.c) rizasını qazanmaq olan bir insanın bağışlanacağı müjdəsini eşitməsi necə də gözəl, ruha sevinc bəxş edən bir xəbərdir.

Burada bir məsələyə də toxunaq. Hz. Məhəmməd (s.a.s) bir sıra hədislərində imanı, namazı bir dad kimi tərif etmişdir. O uca Peyğəmbər buyurur:

«Üç özəllik vardır. Bunlar kimdə olsa, o, imanın dadını bilər: Allah və Rəsulunu hər kəsdən çox sevmək. Sevdiyini Allah üçün sevmək, Allah küfr bataqlığından qurtardıqdan sonra yenidən küfrə dönməyi atəşə atılmaq kimi çirkin və təhlükəli görmək».[7]

«Allahım, imanı bizə sevdir. Qəlblərimizi imanla süslə. Küfrü, günahı, üsyanı bizə çirkin göstər. Bizi doğrunu tapanlardan et».[8]

Merac nemətinin biri də «Bəqərə» surəsinin son ayəsində verilən müjdədir:

لاَ يُكَلِّفُ اللّهُ نَفْساً إِلاَّ وُسْعَهَا لَهَا مَا كَسَبَتْ وَعَلَيْهَا مَا اكْتَسَبَتْ رَبَّنَا لاَ تُؤَاخِذْنَا إِن نَّسِينَا أَوْ أَخْطَأْنَا رَبَّنَا وَلاَ تَحْمِلْ عَلَيْنَا إِصْراً كَمَا حَمَلْتَهُ عَلَى الَّذِينَ مِن قَبْلِنَا رَبَّنَا وَلاَ تُحَمِّلْنَا مَا لاَ طَاقَةَ لَنَا بِهِ وَاعْفُ عَنَّا وَاغْفِرْ لَنَا وَارْحَمْنَا أَنتَ مَوْلاَنَا فَانصُرْنَا عَلَى الْقَوْمِ الْكَافِرِينَ

(əl-Bəqərə, 2/286)

«Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər (bir işə mükəlləf edər). Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir. (Möminlər deyirlər): «Ey Rəbbimiz, (bəzi tapşırıqlarını) unutduqda, ya da yanıldıqda bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyə bizi mükəlləf etmə! Bizi əfv edib bağışla, bizə rəhm

---

[7] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 578.
[8] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 581.

**et! Sən bizim ixtiyar sahibimizsən (mövlamızsan). Kafirlərə qələbə çalmaqda bizə kömək et!».**

**Göründüyü kimi, bu ayədə də bağışlanma müjdəsi var və uca Allah (c.c) insanın gücü ilə məsuliyyəti arasında tarazlıq yaratmışdır. Bu isə ilahi ədalətin açıq göstəricisidir.**

**Şair bu merac nemətini də bir şirinlik, ümid, güc simvolu olan xurma obrazı ilə əlaqələndirmişdir.**

**Hz. Nizaminin merac nemətləri ilə xurma arasında bağlılıq yaratması, xurmanı dini, bədii fikrin simvoluna çevirməsi onun geniş xəyal dünyasının ölçüsünü, şair istedadının dərəcəsini, imanının gücünü göstərən bir dəlildir.**

**SƏNİN DODAQLARININ TƏRAVƏTİNDƏN**

**HAMIYA XURMA NƏSİB OLSUN**

لب بگشاتا همه شکر خورند

ز آب دهانت رطب تر خورند

***Ağzını aç ki, hamıya şəkər nəsib olsun,***

***Sənin dodaqlarının təravətindən hamıya xurma nəsib olsun.***[9]

**Hz. Nizami bu beytdə İslam Peyğəmbərinin merac gecəsindən qayıtdıqdan sonrakı halını təsvir etmişdir. Şair merac nemətinin şirinliyini, insanlar üçün bərəkətini şərh etmək üçün bir sıra vasitələrdən yararlanmışdır. O, merac nemətlərinin xurma şirinliyinə şəkər dadı da qatmış, bu nemətləri və onları gətirən mübarək Peyğəmbərin ətrini təravət (təzəlik, dad) sözü ilə ifadə etmişdir.**

**Şair beytin birinci misrasında hz. Məhəmmədi (s.a.s) sevənlərin Ona olan eşqini göstərmək üçün bir gözəl səhnə yaradır. Artıq hz. Məhəmməd (s.a.s) meracdan qayıtmışdır. Səhabələr Onun hansı müjdə və xəbərlə gəldiyini həsrətlə gözləyirlər. Onu dinləmək, rahatlığa qovuşmaq istəyirlər. Şair bu münasibəti, həsrət və ehtiyacı ifadə etmək üçün misranın başlanğıcında «ağzını aç, danış» müraciət ifadəsindən istifadə etmişdir. Bu ifadə bir neçə mənanı ehtiva edir: həsrət, ehtiyac, nemət, şərh.**

**Bizcə, hz. Nizami bu anlayışları beytin məzmun və formasına yerləşdirməklə bir neçə məsələni izah etmişdir.**

**Hər şeydən öncə şair insanların hz. Məhəmmədə (s.a.s) olan ehtiyacını göstərmişdir. Yəni danış, ey sevgili Peyğəmbər, bizim Sənin sözünə ehtiyacımız var. Sən olmasaydın, bu mübarək müjdəni, bu bərəkətli merac nemətini kim gətirə bilərdi? Bizim maddi və mənəvi**

---

**[9] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 34.**

ruziyə ehtiyacımız var. Danış, ey mübarək Peyğəmbər, ruhumuza qida ver, bizi müjdənlə sevindir, danış, könlümüz rahatlıq tapsın.

Şair bu ifadələrlə əshabın hz. Məhəmmədə (s.a.s) olan inamını dilə gətirmişdir. Danış, ağzını aç, ey mübarək insan, biz Sənə inanırıq. Sən «tamaşa etməyə» getdin, ilahi nemətləri gördün, bizim buna şübhəmiz yoxdur. İnsan sevdiyi, inandığı, ehtiyacı olduğu bir sözün danışılmasını həyəcanla gözləyər, onu söyləyənə «danış», «ağzını aç» deyər.

Hz. Nizami bu ifadələrlə merac nemətinin şərh olunma ehtiyacını bildirmişdir. Yəni ey Məhəmməd (s.a.s), İslamı bizə, bütün insanlığa öyrət.

Şair demək istəyir ki, merac nemətі, hz. Məhəmməd (s.a.s), bütövlükdə İslam dini insanlığın ehtiyacıdır, qidasıdır, axirət azuqəsidir. Hz. Nizami deyir ki, Sən danış, hamıya, yəni bütün insanlığa şəkər nəsib olsun, fitrəti pozulmuş insanlığın ağzı dada gəlsin, insanlıq bu islam nemətini dadsın-öyrənsin, ona inansın və xilas olsun. İnsanlığın hz. Məhəmmədə (s.a.s), merac nemətinə olan ehtiyacının şəkər, xurma obrazları ilə ifadə edilməsinin bir səbəbi də budur ki, xurma güclü, enerjili bir qidadır. Məsələn, hz. Məhəmmədin (s.a.s) dönəmində yeni doğulmuş uşağı Onun yanına gətirərdilər. Peyğəmbər yeni doğulmuş, zəif uşağın dodağına xurma şirəsi sürtərdi. Müasir tibb elmi də yeni doğulmuş uşağın ən çox xurma kimi şirin, qidalı maddələrə ehtiyacı olduğunu sübut etmişdir.

Merac nemətі də insanlıq üçün bir xurmadır, onu gücləndirən, mənəvi, ruhi xəstəliklərdən qoruyan nemətdir.

## XURMA HƏYAT AĞACIDIR

Hz. Nizaminin merac nemətini xurmaya, şəkərə bənzətməsinin səbəblərini daha dərindən anlamaq üçün xurmanın başqa keyfiyyətlərinə də baxaq.

İncildə xurma həyat ağacı adlandırılmışdır. Yəni xurma ağacı insanlara bərəkət, ruzi verir.

Xurma ağacı insana bənzəyir. Bu ağacın insan bədəninə oxşayan düz gövdəsi var. Xurma ağacının baş hissəsi var. Əgər ağacın baş hissəsi zədələnsə, ağac quruyur.

Xurma ağacının insan kimi suya çox ehtiyacı var. Bu ağaca tez-tez su verilməsə, məhsul vermir.

Xurma ağacı çox bərəkətlidir. Onun meyvəsi çörəyi, əti, demək olar ki, bütün qidaları əvəz edir, insanlar xurma satışından çox gəlir əldə edirlər. Xurma ağacının budaqlarından binaların üstünün örtülməsi, hətta, yorğan, göşək kimi istifadə edilmişdir. Onun gövdəsindən yanacaq və tikinti materialı kimi istifadə olunur.

İnsanlar xurma ağacının kölgəsində dincəlirlər. Xurma ağacının göz oxşayan görkəmi var.

Xurma meyvəsi min bir dərdin dərmanıdır. Onun elə bir növü var ki, insanları xəstəlik və sehrdən qoruyur. Xurma meyvəsindən istifadə edilməklə çoxlu gözəl yeməklər hazırlanır.

Hz. Məhəmmədin (s.a.s) dönəmində xurma ərəblərin maddi həyatının ayrılmaz, önəmli bir hissəsi idi. İslam peyğəmbəri xurmanı çox sevər, xurmasız evdə bərəkətin olmayacağını buyurardı.

Hz. Məhəmmədin (s.a.s) mübarək səhabələri xurma yeyər, xurmanı sədəqə verər, döyüşə gedəndə özləri ilə xurma götürərdilər. Xurma onların ən sevimli, ən bərəkətli qidası idi. Onlar hz. Məhəmmədin (s.a.s) buyruğu ilə oruc iftarını da xurma ilə açırdılar.

## XURMA MÜSƏLMAN KİMİDİR

Xurma ilə bağlı bir neçə hədis oxuyaq:

Sad bin Əbi Vaqqas (r.a): «Rəsulullah: «Kim hər gün sabah acqarına yeddi Acvə xurması yeyərsə, o gün ona nə zəhər, nə də sehr zərər verər»,-buyurdu».[10]

İbni Ömər (r.a): «Hz. Peyğəmbərin (s.a.s) yanında idik. Bu zaman təzə xurma gətirildi: «Ağaclardan bir ağac var ki, müsəlman kimidir»,-dedi. Mən: «O, xurmadır»,-deməк istədim. Gördüm ki, ora yığışanların ən kiçiyi mənəm. Buna görə də susdum. Hz. Peyğəmbər (s.a.s): «O, xurmadır»,-buyurdu».[11]

Səhl bin Sad (r.a) belə buyurur: «Əbu Üseyd əs-Səidi gəldi, Rəsulullahı (s.a.s) toya dəvət etdi. Gəlin olan xanımı da o zaman ona xidmət etdi. Rəsulullaha (s.a.s) içmək üçün nə verdiyini bilirsənmi? Gecə mis bir qab içərisində bir az xurma isladıb şərbət düzəltmişdi».[12]

Ənəs (r.a) belə buyurur: «...Mədinəyə gələndə Ümmü Süleymi yenə doğuş sancısı tutdu və bir oğlan uşağı doğdu. Anam (Ümmü Süleym) mənə:

- Ənəs, bu uşağı sən sabah erkən Rəsulullahın yanına götürməmişdən öncə bir kimsə onu əmizdirməsin,-dedi.

Sabah erkən mən uşağı alıb Rəsulullahın (s.a.s) yanına apardım. Rəsulullahın əlində bir dağlama aləti var idi. Məni görəndə:

---

[10] Sahihi-Buhari, Muhtasarı Tecridi – Sarih (çeviri, tehric ve notlar Abdullah Feyzi Kocaer), Konya, 2004, s. 580.

[11] Sahihi-Buhari, Muhtasarı Tecridi – Sarih (çeviri, tehric ve notlar Abdullah Feyzi Kocaer), Konya, 2004, s. 44.

[12] Sahihi-Buhari, Muhtasarı Tecridi – Sarih (çeviri, tehric ve notlar Abdullah Feyzi Kocaer), Konya, 2004, s. 586.

- Hər halda Ümmü Süleym doğdu,-buyurdu.

- Bəli,-dedim.

O, tez əlindəki dağlama alətini bir kənara qoydu. Mən də uşağı ona verdim. Rəsulullah (s.a.s) Mədinəyə xas olan Acvə xurmasından bir dənə istədi. Onu ağzında yaxşıca çeynədi, sonra da uşağın ağzına qoydu. Uşaq xurmanı yalamağa başladı. Bunu görən Rəsulullah (s.a.s):

- Mədinəlilərin xurma sevgisinə baxın!,-buyurdu.

Uşağın üzünü sığalladı və ona Abdullah adını qoydu».[13]

Ənəs buyurur: «Rəsulullah (s.a.s) axşam namazından öncə bir neçə təzə xurma ilə orucunu açardı. Təzə xurma tapa bilməsə, quru bir xurma ilə iftar edərdi. Quru xurma da tapmasa, bir neçə qudum su içərək iftar edərdi».[14]

Xurmanın özəlliyindən biri də budur ki, insan bir-iki xurma yeməklə bütün günü başqa qidaya ehtiyac duymadan dolana bilər, yəni az xurmada çox bərəkət var. Merac neməti də belədir. Bu ilahi nemətlə insan bu dünyada və axirətdə xoşbəxt ola bilər. Merac neməti insanın ruhi sağlamlığını təmin edən, ona doğru yaşamaq gücü və imkanı verən bir nemətdir.

Xurma müsəlmanların qidasının, maddi həyatının əsası olduğu kimi, merac nemətləri də bir cəmiyyətin sağlam yaşamasının təməlidir.

Əgər biz meracla bağlı ayələrdə buyurulmuş ölçüləri sıralasaq, belə bir mənzərə görünər:

- Bəqərə surəsinin son ayələri
- Allaha (c.c) şərik qoşmayan bütün insanların bağışlanması
- Namaz
- Allaha (c.c) şərik qoşmamaq
- Ata-anaya hörmət və itaət
- Qohum-əqrabaya, kasıba, qürbətdə olanlara yardım etmək
- İsrafa yol verməmək
- Övladlarını öldürməmək
- Zinaya yaxınlaşmamaq
- Nahaq yerə heç kimi öldürməmək
- Yetimlərə yaxşı baxmaq

---

[13] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. I, s. 261.
[14] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. V, s. 510.

**- Söz verəndə yerinə yetirmək**

**- Yer üzündə təkəbbürlə gəzməmək**

**- Doğru olana əməl etmək**

**- Kor-koranə heç kimi yamsılamamaq**

**Hz. Nizami də beytdə maddi nemət olan xurmanın yuxarıda sadaladığımız keyfiyyətlərini nəzərə alaraq merac nemətinin bərəkətini onunla izah etmişdir.**

**Şairin şərhində hz. Məhəmmədə (s.a.s) müraciətlə deyilmiş «ağzını aç» müraciəti merac nemətini, İslamı bizə izah et, öyrət anlamındadır. Bu müraciət həm də Peyğəmbərin təbliğ vəzifəsinə işarə edir.**

**Hz. Nizami bu beytdə hz. Məhəmmədin (s.a.s) bütün insanlığa göndərilmiş bir Peyğəmbər olduğunu da önə çəkir, Merac nemətinin bütün insanların ruzisi olduğunu bəyan edir. Şair «hamıya şəkər nəsib olsun» deyərək «hamı» sözü ilə bütün insanlığı, «şəkər» sözü ilə də merac nemətini nəzərdə tutur.**

**Şair ikinci misrada da yeniliyi, təzə xəbəri, merac hadisəsinin yaratdığı mənəvi-siyasi iqlimi, müjdəni də «Onun dodaqlarının (ağız suyunun) təravəti» deyərək ifadə etmişdir.**

**Merac islam tarixində yeni bir mərhələ yaratdı. Uca Allah (c.c) hz. Məhəmmədi (s.a.s), müsəlmanları merac neməti ilə gücləndirdi, onlara yeni dövrün vəzifəsini verdi, bu vəzifənin yerinə yetirilməsinin yollarını göstərdi. Sıxıntı içində yaşayan Peyğəmbər və müsəlmanlar merac müjdəsi ilə çıxış yolu tapdılar.**

**Hz. Nizami xurma ilə merac neməti arasında əlaqə yaradaraq bu fikri belə izah edir. Şair belə bir mənzərəni yaradır. Aclıq, sıxıntı var. Bu ac olan insanlar aclıqdan əziyyət çəkirlər. Xurma gətirildi (merac neməti gətirildi) süfrədə oturanlar ondan yedilər, özlərinə gəldilər, gözlərinin nuru, dizlərinin gücü artdı. Onlar yaşamaq, mübarizə aparmaq üçün güc qazandılar. Hz. Məhəmmədin (s.a.s) gətirdiyi xurmadan (merac nemətindən) hamıya pay düşdü, hamının ağzı şirin oldu.**

**Xurma bərəkətdir. Hz. Məhəmməd də (s.a.s) müsəlmanı xurma ağacına bənzədib. Bərəkətli müsəlmanın borcu da bütün insanlar üçün bir bərəkətli xurma kimi olmaqdır, uca Allahın (c.c) merac nemətini hamıya paylamaqdır. Hz. Nizaminin bu beytinin bərəkəti də bununla bağlıdır.**

**Şair dastanlarında merac hadisəsini əvvəldən sonadək gözəl bir bədii dillə təsvir etmiş, bu möhtəşəm hadisənin bütün detallarını**

dəyərləndirmiş və meracın insanlıq üçün önəmini göstərmişdir. Şairin gəldiyi qənaətləri belə ümümiləşdirmək olar:

Nizamiyə görə, İslam Peyğəmbəri merac gecəsi uca Allahdan ümmətin bağışlanmasını istəmiş, «rəhm etmək xəzinəsinin müjdəsi üçün dua etmişdir». Uca Allah onun duasını qəbul etmişdir;

İslam Peyğəmbəri merac gecəsi ümməti üçün «sevinc müjdəsi gətirdi»;

Hz. Məhəmməd (s.a.s) merac gecəsi ümmət üçün «cəhənnəmdən azad olmaq vəsiqəsi gətirdi»;

Şairə görə, İslam Peyğəmbəri merac gecəsi ümmət üçün «uca Allahın kərəm fərmanı ilə qayıtdı»;

Nizamiyə görə, merac gecəsi İslam Peyğəmbəri ümmət üçün «bağışlanmaq baratını gətirdi»:

Nizamiyə görə, İslam Peyğəmbəri merac gecəsi uca Allahın hüzurundan «ümmətinin yanına bir xəzinə kimi qayıtdı»;

Nizamiyə görə, merac gecəsi İslam Peyğəmbəri uca Allahın «İxlas süfrəsinə» qonaq oldu. O, ümməti üçün nur gətirdi:

Şairə görə, İslam Peyğəmbərinə inanmaq, onun ardınca getmək, onun ümməti olmaq uca Allahın buyruğudur və bu buyruğa itaət edənlər həm bu dünyanın, həm də axirətin səadətinə qovuşacaqlar. Merac gecəsi verilmiş namaz neməti də insanlıq üçün bir qurtuluş nemətidir.

Şairə görə, İslam Peyğəmbəri xəzinələr qıfılının açarıdır, merac gecəsi gətirdiyi nemətlər ümmət üçün bir məlhəmdir. O, peyğəmbərlərin önündə gedir və uca Allahın son elçisidir.

Şairə görə, islam Peyğəmbərinin merac neməti İslam dininin dəyərləri sırasında ayrıca yer tutur və bu dəyərlər insanlığa uca Allahın bir lütfüdür, onları öyrənmək, onların əmrlərinə tabe olmaq isə insanların vəzifəsidir.